# Təsəllimiz var

## Şəhid qardaşımın qanı yerdə qalmayıb



**Qardaşım Ələkbər Ramiz oğlu Hacıyev 1969-cu il oktyabrın 25-də Bakıda dünyaya gəlmişdi. Atamız tikintidə usta işləyirdi, anamız isə evdar qadın idi. Biz iki qardaş, bir bacı idik.**

Ələkbər ailəmizin ortancıl övladı idi. O, 1984-cü ildə Bakıdakı 20 saylı orta məktəbi bitirmiş, 1984-1986-cı illərdə 68 saylı peşə məktəbində aşpaz ixtisasına yiyələnmişdi.

Valideynlərimiz bizə tərbiyəli, dürüst, mehriban, zəhmətsevər olmağı öyrədirdilər. Ələkbəri də bu keyfiyyətlərinə görə müəllimləri çox sevirdilər. Çox qayğıkeş, əliaçıq, hörmətcil, istiqanlı idi Ələkbər. Kişilik, mərdlik məktəbi bildiyi əsgərlik illərini səbirsizliklə gözləyirdi. Nəhayət, 1987-ci ildə hərbi xidmətə yollandı. Rusiyanın Leninqrad (indiki Sankt-Peterburq) bölgəsinin Lodeynoye Pole şəhərində keçmiş sovet ordusu sıralarında xidmət etdi. 1989-cu ildə həqiqi hərbi xidmətini başa vurub vətənə döndü və İçərişəhərdəki "Karvansara" restoranında işə düzəldi.

Ürəyi arzularla dolu, həyatsevər gənc idi. Gələcəklə bağlı gözəl xəyalları, çoxlu planları vardı. Ancaq 1980-ci illərin sonları, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş verən hadisələr onun da həyatını başqa bir məcraya yönəltdi. Azərbaycan xalqı 1990-cı ildə 20 Yanvar faciəsi ilə üzləşdi. Vətənimizin bir parçası olan Qarabağı erməni daşnakları münaqişə alovlarına bürüdülər. Erməni vandallarının törətdikləri vəhşiliklər gənc Ələkbəri də sarsıdır, hiddət və mübarizə əzmini günbəgün artırırdı.

İşğalçı Ermənistan silahlı qüvvələrinin respublikamızın ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Azərbaycan Respublikasının ozamankı Prezidenti Heydər Əliyevin 1993-cü il noyabr 2-də milli televiziya və radio ilə xalqa müraciətindən təsirlənən Ələkbər hərbi komissarlığa müraciət etdi və könüllü olaraq müharibəyə yollandı.

O, 1993-cü ilin noyabrından 1994-cü ilin aprelinə qədər Ağdamın Baş Qərvənd, İlxıçılar, Güllücə, Tağıbəyli kəndləri uğrunda gedən döyüşlərdə iştirak etdi. 1994-cü il aprelin 24-də Tağıbəyli kəndində baş nahiyəsindən aldığı qəlpədən şəhid oldu. Döyüş mövqeyindən çıxarılması mümkün olmadığı üçün şəhid Ələkbərin nəşinin yerini indiyədək bilmirik.

Ələkbər kimi igid oğulların uğrunda canlarından keçdikləri ərazilərimizi 2020-ci ilin payızında, İkinci Qarabağ müharibəsində qəhrəman Azərbaycan Ordusu işğaldan azad etdi. Möhtəşəm qələbəmiz bizi ikiqat sevindirdi və qürurlandırdı. Birinci Qarabağ müharibəsinin bütün şəhidləri kimi qardaşım Ələkbərin də qanı yerdə qalmadı. Biz nəhayət ki, qalib dövlətin məğrur vətəndaşlarıyıq. Çox ümid edirik ki, dövlətimizin gücü və qüdrəti sayəsində şəhid qardaşım Ələkbər Ramiz oğlu Hacıyevin də nəşi işğaldan azad olunmuş ərazilərdən tapılıb bizə təhvil veriləcək.

Onu da qeyd edim ki, Bakının Badamdar qəsəbəsindəki "Səbail şəhidləri" abidə kompleksində qardaşımın da şəkli həkk olunub. Bu, bizim təsəlli ünvanımızdır.

***Səadət HACIYEVA,***
***AMEA Mərkəzi Elmi Kitabxanasının baş biblioqrafı***

Azərbaycan.- 2024.- 26 iyun, № 131.- S.14.